“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 13-14 (6819-6820) 28 dekabr 2019-cu il Cəbrayıl RİH-nin orqanı


## 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günüdür

# Yeni İliniz mübarək!



# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə evsahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bugünü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

## Æ ØßººßºÆ ß
## Æ Ø ł ºŁyŁ





Dekabrın 28-də 4 saylı qəsəbədəki Heydər Əliyev Parkında Cəbrayıl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və Biləsuvar Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə idarə, müəssisə və təşkilatların rəhbərləri, müəllim və şagird kollektivləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə bayram şənliyi keçirilmişdir.

Bayram şənliyini giriş sözü ilə İcra Hakimiyyəti Başçısının müavini Fəridə xanım İbayeva açaraq tədbir iştirakçılarını təbrik etdi. Dünya Azərbaycanlılarının Həmrəylik gününün təsis edilməsində Ümummilli Lider Heydər Əliyevin xidmətlərini xüsusilə vurğuladı.




Məclisə təşrif buyuran Şaxta baba və Qar qız balacaları hədiyyələrlə sevindirdi.

Mədəniyyət işçiləri geniş konsert proqramı ilə çıxış etdilər.

**“Xudafərin”**



# Anım tədbiri keçirilmişdir





**Dekabrın 12-də Cəbrayıl rayonunda Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilmişdir.**

Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə müəssisə rəhbərləri, kənd ərazi nümayəndələri,ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək xatirəsini ehtiramla yad etdilər.

Anım günü ilə əlaqədar rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar və din xadimlərinin iştirakı ilə ehsan süfrələri təşkil olundu, Ulu Öndərin ruhuna dualar oxundu.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından on altı il keçdiyini xatırlatdı, zəngin dövlətçilik təcrübəsi, fenomenal siyasi bacarığı, böyük istedadı ilə fərqlənən Ümummilli Lider Heydər Əliyevin hələ sağlığında canlı əfsanəyə çevrildiyini və öz şah əsəri olan müstəqil Azərbaycanı bütün dünyada şərəf və ləyaqətlə təmsil etdiyini bildirdi.

Qeyd etdi ki, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycanı geridə qalmış aqrar respublikadan çiçəklənən, yüksək inkişaf edən bir diyara çevirmişdir. Azərbaycanın iqtisadiyyatında, cəmiyyətində narahatlıq doğuran tənəzzül proseslərinin açıq müşahidə edildiyi bir zamanda respublikanın rəhbərliyinə gələn Heydər Əliyev ittifaqın güclü iqtisadi potensialından səmərəli istifadə edərək Azərbaycanı qısa müddət ərzində tərəqqi yoluna çıxarmışdır.

1993-cü ildə ölkədə hökumət böhranı, xaos, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Ulu Öndərin hakimiyyətə gəlişi ilə Azərbaycan dövlətçiliyi qorunub saxlanıldı, ölkədə davamlı sabitlik təmin olundu.

RİH başçısı Heydər Əliyev əməllərinin bu gün də uğurla davam və inkişaf etdirilməsinə diqqəti çəkib dedi:

- Bu gün Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycannın çağdaş tarixinin yeni şanlı səhifələri yazılır.Ulu Öndərin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**”Xudafərin”**

# Konfransda həmyerlimizin çıxışı






Azərbaycan Dövlət İqtisad Universiteti Tələbə Elmi Cəmiyyətinin və ”İqtisadiyyat” fakültəsinin təşkilatçılığı ilə Beynəlxalq Konfrans keçirilmiş və konfrans Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuşdur. Tədqiqatçı Gənclərin Beynəlxalq Konfransının əsas məqsədi tələbələrin elmi potensialını üzə çıxarmaq və onların elmə olan marağını yüksəltməkdir. Konfransda Azərbaycan İqtisadiyyat Universiteti ilə yanaşı ölkəmizin daha beş ali təhsil müəssisəsi və Türkiyə Cümhuriyyətinin bir ali təhsil müəssisəsinin - Səlcuq Universitetinin tələbələri iştirak etmişlər. 64 məruzə dinlənilmiş və ”Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Tədqiqatçı Gənclərin Beynəlxalq Konfransının Tezisləri” kitabında çap edilmişdir.

Fərəhli haldır ki, kitabdakı məqalələrdən birinin müəllifi həmyerlimiz Səfərova Türkanə Oruc qızıdır. ”Multikulturalizm dünyada və Azərbaycanda” məqaləsinin başlıca məqsədi multikulturalizm haqqında məlumat vermək, multikulturalizmin təhlili və multikultural dəyərlər haqqında insanları maarifləndirmək və bu siyasət xəttinə dəstək olmaqdan ibarətdir. Məqalə üç hissədən ibarətdir: məqalənin birinci hissəsi ”Multikulturalizm nədir”, ikinci hissəsi ”Multikulturalizmə fərqli yanaşmalar”, üçüncü hissə isə ”Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir” adlanır. Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Məqalədə həmçinin multikulturalizmin Azərbaycan modelindən bəhs olunur və tolerantlığın Azərbaycan xalqının qədim ənənəsi olduğu vurğulanır: ”Azərbaycan dünyada yeganə ölkədir ki, əsrlər boyu bir çox etnik mədəni birliklər və müxtəlif dinə mənsub olan xalqlar bir-biri ilə mehriban münasibətdədir. Dünyanın bir çox ölkələrində multikulturalizm modelləri vardır: Azərbaycandakı multikultural modelin ən səciyyəvi xüsusiyyəti bundan ibarətdir ki, bizdə məcburetmə yoxdur, fərqliliklərə sevgi var. Avropadakı bəzi cəmiyyətlərdə multikulturalizm mövcud olsa da, buradakı hüquqi sistem insanları məcbur edir ki, multikultural olsunlar, ətrafdakı fərqliliklərə dözsünlər. Yəni burada bir məcburiyyət var. Azərbaycandakı multikulturalizmin xüsusiyyəti isə ondan ibarətdir ki, hər birimiz onu sevərək yaşayırıq, öz həyat tərzimiz kimi qəbul edirik. Burada fikirlərimi ölkənin Birinci Xanımı Mehriban Əliyevanın sözləri ilə yekunlaşdırıram: ”Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə, öz əməllərinə hörmətlə yanaşan xalq, gərək eyni şəkildə fərqli mədəniyyətlərə, fərqli tarixə, fərqli ənənələrə də hörmətlə yanaşsın”.

Bu məqalə tədqiqatçı tələbə və iqtisadçı mütəxəssis Türkanə Oruc qızı Səfərovanın ilk uğurlarındandır. Türkanə xanıma və onun şəxsində istedadlı gənclərimizə uğurlar arzulayırıq.

**Hidayət Səfərli**

# İmadəddin Nəsiminin 650 illik yubileyi




Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi (1369-1417) bəşəri dəyərlərin əsas carçılarından biridir. Əsasını humanist ideyalar təşkil edən Nəsimi yaradıcılığı dünya ədəbiyyatında təkrarolunmaz bir fenomendir. Azərbaycan poeziyasının yaradıcılarından biri olan İmadəddin Nəsimi Azərbaycanda ədəbi fikrin mühüm siması olmaqla yanaşı, ümumilikdə Şərq dünyasının mədəniyyət tarixində özünəməxsus yerə malikdir.

Nəsimi mürəkkəb yaradıcılıq yolu keçmiş, lirik şairdir. Yaradıcılığa aşiqanə şerlərlə başlayan Nəsimi sonralar dövrün siyasi, ictimai, əxlaqi mövzularında əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində yaranan fəlsəfi qəzəlin banisi olmuşdur. Nəsiminin bədii yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələdir.

Rayonda böyük Azərbaycan şairi Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər həyata keçirilmişdir.

4 saylı qəsəbə klubunda keçirilən tədbiri giriş sözü ilə Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə xanım İbayeva açaraq ”Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” 2018-ci il 15 noyabr və ”Azərbaycan Respublikasında 2019-cu ilin ”Nəsimi ili” elan edilməsi haqqında” 2019-cu il 11 yanvar tarixli sərəncamlarının ölkəmizdə şairə verilən yüksək dəyərin göstəricisi olduğunu, böyük mütəfəkkirin irsinin təbliğində xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı.





İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın respublika ərazisində bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü rayonumuzda böyük rəğbətlə qarşılanıb. Aksiya çərçivəsində rayonumuzda da 4 min ağac əkilmişdir.

Ağacların əkilməsi kompaniyasında rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisələrin, məktəblərin müəllim və şagird kollektivləri, gənclər fəal iştirak etmişlər.

Tədbir zamanı rayon mədəniyyət işçilərinin və məktəblilərin ifasında Nəsimin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.



***

Dekabrın 15-də ”Uşaq və Yeniyetmələrə Dəstək” İctimai Birliyi ”Qarabağ gəncləri arasında Nəsimi kuboku” adlı layihə çərçivəsində Biləsuvar rayonu ərazisində salınmış qəsəbələrdə fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında ”Nə? Harada? Nə zaman?” intellektual yarış keçirilmişdir.

Yarışın məqsədi dahi Azərbaycan şairi İmadəddin Nəsimi irsinin daha geniş coğrafiyada təbliğ edilməsinə, oyunların populyarlaşdırılması yolu ilə vətənpərvərlik ruhunun daha da yüksəldilməsinə xidmət etməkdən ibarətdir.

Yarışma 6 saylı qəsəbədə fəaliyyət göstərən X.Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbində keçirilmiş, gərgin və maraqlı keçən yarışda 8 saylı tam orta məktəbin komandası birinci, 9 saylı tam orta məktəbin komandası ikinci və X.Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbin komandası isə üçüncü yeri qazanıb. Qalib komandalar Fəxri Fərmanlarla təltif olunub, hədiyyələr və kuboklarla mükafatlandırılıb.

# Bayraq Günü qeyd edilmişdir



9 noyabr ”Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” ilə əlaqədar rayonun təhsil və mədəniyyət müəssisələrində inşa, rəsm müsabiqələri, sərgilər və digər müxtəlif ədəbi-bədii tədbirlər həyata keçirilmişdir.

Tədbirlərin yekunu olaraq noyabrın 8-də rayon İcra Hakimiyyətinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə 7 saylı qəsəbədə fəaliyyət göstərən İsgəndər Tahirov adına Mehdili kənd tam orta məktəbində qəsəbələrdə fəaliyyət göstərən rayon məktəblərinin müəllim və şagirdlərinin iştirakı ilə ”Sevirəm bayrağını, öpürəm torpağını!” adlı tədbir keçirilmişdir.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə xanım İbayeva çıxış edərək bayram münasibəti ilə tədbir işrirakçılarını salamladı, ”Bayraq Günü”nün yaranma tarixi haqqında məlumat verdi.

Sonda rayon məktəblilərinin hazırladıqları dövlət bayrağına həsr edilmiş şer və kompozisiyalar nümayiş etdirildi.



## Cocuq Mərcanlıya marşrut xətləri açıldı

Bu yaxınlarda Mingəçevir, Gəncə və Sumqayıt şəhərlərindən Cocuq Mərcanlı kəndinə marşrut xətləri açıldı. Bu, məcburi köçkünlükdən sonra rayonumuzun ərazisində istifadəyə verilən ilk marşrut xəttidir. Doğma rayonumuzun mərkəzi Cəbrayıl şəhərinə də tezliklə respublikamızın müxtəlif yerlərindən belə marşrut xətlərinin açılmasını arzulayırıq.

**"Xudafərin"**

# Əbədi yaşayanların xatirəsi işığında



Dekabrın 26-da 4 saylı qəsəbə klubunda Cəbrayıl rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Əbədi yaşayanlar" adlı anım tədbiri və eyniadlı kitabın təqdimatı keçirilmişdir.

Tədbir 4 saylı qəsəbə ərazisində salınmış "Şəhidlər" Abidə Kompleksini ziyarət etməklə başlamış, sonra həmim qəsəbə klubunda davam etdirilmişdir.

10 aprel 1997-ci ildə şəhid olmuş 7 kəşfiyyatçının şərəfli ömür yolundan bəhs edən tədbirdə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş insanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, şəhidlər haqqında "Səkkiz oğul istərəm" sənədli filmi nümayiş etdirilmişdir.

Tədbiri giriş sözü ilə açan Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş vətən oğullarının, o cümlədən 10 aprel 1997-ci ildə şəhid olmuş igid kəşfiyyatçılar Elxan Ağayev, Vüqar Yarəhmədov, Dinar Mustafayev, Aqşin Həsənov, Nizami Ələkbərov, Fariz Cavadov, Anar Rzayev və hazırda yaşayan Aqil Əhmədovun mənalı həyat yolundan söhbət açmışdır.

*Haşiyə: Fariz Şəmil oğlu Cavadov 1975-ci il sentyabrın 10-da Cəbrayıl rayonunun Çaxırlı kəndində anadan olub. 1 sentyabr 1982-ci ildə Cəbrayıl rayonu Mehdili kənd orta məktəbinə daxil olub. 1992-ci ildə həmin məktəbi bitirib. 3 oktyabr 1993-cü ildə hərbi xidmətə çağırılan Fariz bir ay Sanqaçal qəsəbəsindəki "N" saylı hərbi hissədə təlim keçib. Füzuli rayonu "N" saylı hərbi hissədə xidmət edən igid döyüşçü 10 aprel 1997-ci ildə şəhid olub. Qəhrəman döyüşçü 28 may 2017-ci ildə "Cəmşid Naxçıvanski" yubiley medalı, 24 iyun 1998-ci ildə isə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.*

Tədbirdə iştirak edən "Əbədi yaşayanlar" kitabının müəllifi, "Milli Mədəniyyətin Təbliği" İctimai Birliyinin rəhbəri Jalə Cəfərova qələmə aldığı kitab haqqında ətraflı məlumat vermişdir.

Təbirin sonunda şagirdlərin ifasında "Vətən, Qarabağ, Şəhidlər" mövzusunda kompozisiya səsləndirilmişdir.

Anım tədbirində 7 kəşfiyyatçı şəhidin anaları, ailə üzvləri, hazırda yaşayan igid kəşfiyyatçı Aqil Əhmədov, Qarabağ müharibəsi qaziləri, veteranlar, qəsəbələrdə fəaliyyət göstərən ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivləri iştirak etmişlər.

**"Xudafərin"**





# Ömür güzgüsündə görünən insan

**Dərindən düşünəndə, insan ömrünün mahiyyətinin xatirələr yığını olduğunu görürsən. Bu xatirələr dil açıb danışanda isə insanın həyatı güzgü kimi gəlib adamın gözləri qarşısından keçir. Elə bil ki, xatirələr insan ömrünün güzgüdəki əksi kimi beyinlərdə proyeksiya olunur. Bu səbəbdən də 45 ilə yaxın Cəbrayıl rayonunun səhiyyəsinə rəhbərlik edən respublikamızın Əməkdar həkimi Hüseyn Məcid oğlu Əhmədovun 75 illik yubileyi işığında ərsəyə gələn kitabımızı da "Xatirələr - ömrün güzgüsü" adı ilə oxucularımıza ərməğan etmişik.**




Bu kitabda Hüseyn həkimin öz dilindən qələmə aldıqlarımız özünün acılı-şirinli həyat hekayətləri də, həmçinin bu 75 yaşın şəninə onun dostlarının, doğmalarının, tanış-bilişlərinin, həmkarlarının söylədikləri ürək sözləri də Hüseyn Əhmədovun ömrünə güzgü tutan xatirələr timsalındadır. Bir insanın, bir həkimin, bir səhiyyə təşkilatçısının ömür yolu xatirələr işığında apaydın bərq vurur. Hüseyn həkim kimdir, hardan gəlib, hara gedir, ailəsində və ictimaiyyətdə hansı mərtəbənin, nüfuzun sahibidir və s. bu kimi sualların cavabları kitabın vərəqlərini çevirib aşırdıqca birər-birər oxucu gözündən gəlib keçir.

2019-cu ildə "Təknur" nəşriyyatında işıq üzü görən bu kitabın sonundakı "Zamanın donmuş heykəli - şəkillər" bölümündə verilmiş fotoalbomda özünə yer almış fotoşəkillərin əyani görüntüsü də bir daha Hüseyn Məcid oğlu Əhmədovun fədakar həkim ömrünü göz önünə gətirir, 75 illik bir ömrün əbəs yerə yaşanmadığını açıb göstərir.

Əlbəttə, öz ömrünü el-oba yolunda xərcləyən, gecəsini gündüzünə qataraq min bir əzab-əziyyətlərə qatlaşan və insanlara şəfa paylayan bir insanın həyatı çox qiymətlidir. Bu qiymətli həyatın sahibi Hüseyn həkimə möhkəm cansağlığı, uzun ömür və növbəti yubileyini doğma Cəbrayılımızda şad-firavan keçirməsini arzulayırıq.

**Şakir Əlifoğlu**

## *Təbrik edirik!*



*Qəzetimizin baş redaktoru Şakir Albalıyev Ukrayna kazaklarının atamanı marşal Dmitro Saqaydakın imzaladığı sənədə əsasən Kazakların medalı ilə təltif olunub. Ukrayna kazaklarının Azərbaycandan olan getman nümayəndəsi Marşal Üzeyir Vahabovun 65 illiyi ilə bağlı təsis olunan medalı Ş.Albalıyevə şəxsən marşal Ü.Vahabov özü təqdim etmişdir. Şakir Albalıyev bu medala hərbi vətənpərvərlik mövzusundakı ardıcıl fəaliyyətinə görə layiq görülmüşdür.*

*Təbrik edir, uğurlar arzulayırıq!*




# ÖMÜR YARPAĞIYIQ...

**(Şair Hidayət Səfərlinin 55 illik yubileyinə gecikmiş söz)**



***Ömrünün 55-ci tamamlanma civarında, dəyərli qələm dostum, eloğlum, istedadlı şair-pedaqoq Hidayət Səfərlinin sosial şəbəkədə paylaşdığı bir yazı diqqətimi cəlb elədi və mənə elə gəldi ki, o ifadələr hamımızın içindən gələndi, amma birimizin yazmağa gücü çatıb. Ola bilsin, onu hamımız, lakin hərəmiz bir cürə ifadə edirik. Şair Hidayət Səfərli özünün 55-ci yubiley məqamını bu qeydlərlə başlayır:***

"Bu da 55 - bu da iki beş... Bir beşin yanına o biri beş gəlincə itirdiklərim də oldu, qazandıqlarım da..."

Və elə bu ruhla da bitirir:

"...55-dən 60-a nələr olacaq o bir Allah bilir... Acısı, şirini ilə həyat gözəldir... Yaşamağa dəyər..."

Doğrudan da, həyat gözəldir və onu yaşamağa dəyər! Əslinə baxsaq bu formul, bu düstur əski filosofların, alimlərin, şairlərin, cəmi kəlam əhlinin, klassik yazarların işlətdiyi, öz həyatlarına və gələcək nəslin həyatına tətbiq etmək istədikləri gerçək niyyətdir. İlk baxışda, bəlkə də, burada qeyri-adi bir şey yoxdur. Fəqət, ata yurdundan sərgərdan olan, doğma ocaq həsrəti ilə qovrulan, ən ağır, ən çətin məqamlarında doğulduğu torpağa üz qoymaq iqtidarında olmayan və bundan dolayı zaman-zaman xəzan yarpaqları təki tökülən simsarlarını el-oba odasından uzaqlarda torpağa tapşıran Söz Adamı-Qələm Adamı, üstəlik Müəllim bir şəxs necə düşünməlidir bəs? Bunları düşünərkən, şair Hidayət Səfərlinin çox sevdiyim "Dünya" şeirindən bu misralar ağlıma gəldi:

***Ömür dedikləri sanma hədərdi,***
***O, sevinc qarışıq qəmdi, kədərdi.***
***Həyat sevgimizin ömrü qədərdi,***
***Sevənlər eşqinə sağdı bu dünya.***

Hə, doğrudan da belədir. Onun ömrünün 55-ci məqamı, məncə, payız buludunda çimən xəzəllərə oxşayır. Əlvan olduğu qədər də yuyunmağa, pak olmağa can atan və xəzan yellərinin bəxşeyişi olan ulusal-ruhsal insan ömrünün yarpaqlarına. Bundan o yanası barlı-bərəkətli payız mövsümüdür və biz onu dəyanətlə keçməliyik, şair qardaşım! Sizin şeirlərinizdə odlu-alovlu, mübariz misralarla (şəhid Ruhin Qəhrəmanovun və onun şəxsində Aprel şəhidlərinin xatirəsinə yazdığınız "Azərbaycan əsgəri" şeiri) birgə, məsum, nisgil, həsrət notları yüklənmiş nümunələr də bəs deyincədir və bunlar yurd ağrılarından, lənətə gəlmiş "məcburi köçkünlük" damğasının tənələrinə dözümsüzlükdən doğur. Əminəm ki, biz onu yenəcəyik və o zaman Sizin şeirlər doğma Cəbrayılımızda, külli - bütöv Qarabağımızda, Sizin və mənim doğulub boya-başa çatdığımız Daş Veysəlli - Xələfli kəndləri civarında boyaboy bərqərar olan şenliklərdə dolaşacaq. İnşallah, o gün gələcək, mütləq gələcək!

Ömürsə davam edir, 60-a qədər və ondan sonra nələr olacağını isə indidən söyləmək çox çətindir. Buna nədənsə son illər daha çox inandığm "Alın yazısı"- "aqibət, qismət, taleyin işi" kimi baxıram. Qoy onu Ulu Yaradan özü müəyyən etsin. Bizə onu xeyirliyə diləmək qalır. 60-dan o yana - üzü yuxarı Sizə sağlıqlı uzun ömür, gözəl işlər-ailənizə səadət, doğma yurd nisgilinə son, bitib-tükənməyən uğurlar, o sıradan bolluca yaradıcılıq uğurları arzulayıram!

Elə burdaca, ömrünüzün 55-ci halına yazdığım "Arasında" adlı bir şeirlə Sizi bir daha təbrik edirəm!

**Bu da bəxtimizin payız aynası,**
**Qalmışıq xəzanla qış arasında.**
**Daha şum vaxtıdı, əkin vaxtıdı,**
**Ömrümüz kotanla xış arasında.**

**Ocaqdan gen düşdük, aralı düşdük,**
**Sızladıq, bozladıq, yaralı düşdük.**
**Ömür yarpağıydıq, saralıb düşdük**
**Töküldük quruyla yaş arasında.**

**Didərgin ellərə tay-həmdəm olduq,**
**Kimin dərdin çəkdik, kimə qəm olduq.**
**Kimə çörək verdik, kimə yem olduq,**
**Damaqla, dodaqla diş arasında.**

**Neynək, naxışımız haqdan yazılıb,**
**O xoş dövranımız daha azalıb.**
**Laməkan ruhlara məzar qazılıb,**
**O yurdda göz ilə qaş arasında.**

**Taleh ömrümüzə bir hədd seçəcək,**
**Əllini, altmışı, yüzü keçəcək.**
**Su gələn arx ilə bir də gələcək,**
**Əmniyyət söz ilə iş arasında.**

**Yusif DİRİLİ**

*Bakı, 4 noyabr 2019-cu il*





# ”Mələk” bədii filminin təqdimatı və nümayişi



***Dekabrın 9-da Nizami Kino Mərkəzində ”O evdən kəfənsiz çıx!” şüarı ilə erkən nikahdan, ailədaxili qadın zorakılığından bəhs edən ”Mələk” tammetrajlı bədii filminin təqdimatı olub.***

Qeyd edək ki, filmin ssenari müəllifləri Aysel Ataş, Sahib Kərimov və Emin Kazımovdur. Film Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Mədəniyyət Nazirliyi və YAP Gənclər Birliyinin dəstəyi ilə gənc prodüser Kənan Aydının işçi qrupu ilə birgə ərsəyə gəlib.

Qeyd edilib ki, filmin nümayişi Birləşmiş Millətlər Təşkilatının ölkəmizdəki nümayəndəliyi və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ənənəvi ”Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində keçirilir.

Təqdimat mərasimində çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov bu filmin ”Qadın zorakılığına qarşı 16 günlük kampaniya” çərçivəsində hazırlandığını bildirib. Onun sözlərinə görə, ”Gender əsaslı zorakı-




lığa qarşı 16 günlük fəallıq” hər il 25 noyabr (Qadınlara qarşı zorakılıqla Beynəlxalq Mübarizə Günü) - 10 dekabr (Beynəlxalq İnsan Hüquqları Günü) tarixləri arasında keçirilən beynəlxalq kampaniyadır və gender əsaslı zorakılığın insan hüquqları pozuntusu olduğunu vurğulayır. Bütün dünyada fərdi şəxslər və təşkilatlar ”16 günlük kampaniya” kimi geniş şəkildə tanınan bu tədbir vasitəsilə hamını qadınlara və qızlara qarşı zorakılığın qarşısını almağa və aradan qaldırmağa çağırır. Qadınlara qarşı zorakılığın yolverilməz olduğunu deyən E.Səferov bu baxımdan filmin böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, qadınlara qarşı hər bir zorakılıq halı pislənilməlidir. Onun sözlərinə görə, son illərdə Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi təsirli tədbirlərə baxmayaraq, dünyanın bir çox ölkələrində olduğu kimi, qadınlara qarşı zorakılıq hələ də mövcuddur. Zorakılığa qarşı mübarizə ilə bağlı gənclər arasında maarifləndirmə işlərinə hər zaman ehtiyac olduğunu deyən S.Orucov qeyd edib ki, ”Mələk” filmi cəmiyyətin maarifləndirilməsi baxımından çox önəmlidir.

”Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev isə qeyd edib ki, dövlətimizin siyasətində gender bərabərliyinin təmin olunması prioritet məsələdir. Onun sözlərinə görə, ölkəmizdə məişət zorakılığına qarşı mübarizə sahəsində mükəmməl hüquqi baza mövcuddur. Bununla belə, ”Mələk” filmi kimi yaradıcılıq nümunələri ictimaiyyəti maarifləndirmək üçün zəruridir.

Çıxış edən YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev bildirib ki, bu gün ölkəmizə uğurla rəhbərlik edən Möhtərəm Prezidentimiz cənab İlham Əliyev, birinci vitse Prezident Mehriban xanım Əliyeva qadınlara və gənclərə xüsusi ilə böyük qayğı göstərirlər. Ailə, Qadın və Uşaq problemləri



üzrə Dövlət Komitəsi bütün televiziyalarda qadın zorakılığına qarşı verilişlərin mütəmadi olmasına səy göstərməlidir. Maariflənmə işinin özü də mükəmməl mütəxəssislər, pedaqoqlar tərəfindən apa-



rılmalıdır. Nümunəvi ailələr televiziya vasitəsilə tamaşaçılara nümayiş etdirilməlidir.

Bu yaxınlarda məşhur ”Qaynana” filminin 50 illiyi qeyd olundu. Cəmiyyətdə heç də hamı satiranı, yumoru eyni qavramır. Bir ailə münaqişəsini araşdırarkən məlum olur ki, əzazil qaynana özünü ”Qaynana” filmindəki Cənnət xala obrazına oxşatmaq istəyib. Soruşanda niyə gəlininizə belə zülm verirsiz? Cavabında deyir, ”Cənnət xala obrazı mənfi idisə, onu niyə o boyda xalq artisti Nəsibə Zeynalova oynayırdı”.

Tədbirdə həmçinin ”Mələk” filminin baş podüsseri Kənan Aydın və quruluşçu rejissoru Elmar Məmmədov çıxış edərək filmin ərsəyə gəlməsində dəstək göstərən hər kəsə minnətdarlıq ediblər.

Sonda film nümayiş olunub.

**“Xudafərin”**

# QMƏVŞAİB-in illik hesabatı

**Nərimanov rayonundakı 178 saylı məktəbin iclas salonunda Azərbaycan QMƏVŞAİB-in Cəbrayıl rayon bölməsinin illik hesabatı dinlənildi. Yığıncaq iştirakçıları əvvəlcə Şəhidlər Xiyabanını ziyarət etmiş azadlıq mücahidlərinin xatirəsini ehtiramla anmışlar.**

QMƏVŞAİB-in rayon filialının sədri Səbuhi Hüseynov yığıncaqda 2019-cu ildə birlik üzvlərinin gördüyü işlər barəsində geniş məlumat vermişdir.

RİHB-nın 1-ci müavini Arif Fərzəliyev, rayon hərbi komissarlığının nümayəndəsi Vaqif Mahmudov, QMƏVŞAİB-in sədr müavini, ehtiyatda olan polkovnik Şura Musayev və rayon fəallarının iştirakı ilə keçirilən tədbirdə görülmüş işlərlə yanaşı, 2020-ci ildə nəzərdə tutulan məsələlərdən də danışıldı.

Hesabat iclası ilə bağlı RİH başçısının 1-ci müavini Arif Fərzəliyev, şəhid ailəsi Məlahət Məhərrəmova, RİHB-nin Şükürbəyli kənd İƏD üzrə nümayəndəsi Nəriman Əsədov, II qrup Qarabağ müharibəsi əlilləri Həsən Həsənov, Kənan Babayev və başqaları çıxış edərək İctimai Birliyin gördüyü işləri qənaətbəxş hesab etmişlər.

**”XUDAFƏRİN”**










# Ermənilər hayların qurbanlarıdır



Şakir Əlifoğlu

**Hayların güdazına getmiş türklərin bir qolu da ermənilərdir...**

**Bu gün hamımızın dilimizdə mənfurluq timsalında populyarlıq qazanmış "ermənilər" ifadəsi var. Bir də "erməni" ifadəsinə sinonim kimi işlətdiyimiz "hay" sözü var. Var "Ermənistan" məfhumu, var buna paralel işlədilən "Hayastan" sözü.**

Dünyaya var gücləri ilə qışqırıb "soyqırım" sözünü bəyan edən də haylardır - "Oğru elə bağırdı ki, doğrunun dili batdı" kəlamı burda həyata keçmiş oldu.

Bəs görəsən bizim eyniləşdirdiyimiz "ermənilər" və "haylar" ifadələri doğrudanmı eyni etnosun müxtəlif şəkildəki adlarıdır?!. Burada məsələ qəlizləşir.

Tarixin qarışıq bir dönəmində "hay" adlı mənfur varlıqlar (millət, ya xalq, ümumiyyətlə heç insan demək də olmur haylara) dünyaya fəlakət toxumu səpmək üçün türkəsilli erməniləri "mədəni şəkildə" "soyqırım" siyasətinə məruz qoydular. Bəli, "bədbəxt türklərdir" ermənilər!. Haylar erməni qövmünü öz təsir dairələrinə çəkərək, onlara öz "dillərini" "yedirtdilər". Beləcə ermənilər "haylaşdı", hələ bu azmış kimi, ermənilər hayların içərisinə o dərəcədə qarışdırıldı ki, hətta bu qarışıqlığı bir qədər də tündləşdirmək, bu qarışıqlığın bir qədər də izini azdırmaq üçün "erməni" ifadəsi "hay" sözünün adekvat sinonimi kimi də işlədildi və hətta bu gün az qala mənfur "hay" kəlməsi kölgədə qalaraq, çox vaxt "erməni" sözü işləklik qazanmağa başladı. Bunun da kökündə hayların öz bəd əməllərini daldalaması - gizlədib, ört-basdır etməsi amili dayanır. Deməli, haylar bir etnos kimi özlərinin adlarını da gizlədərək, hiyləgərcəsinə "erməni" sözünü qabartmağa, öz kələk-kələklərini də erməni adı altında yaymağa başladılar. İndi də onun nəticəsi budur: hay yerinə "erməni" sözünü çox işlədirik, haylara nifrət əvəzinə ermənilərə nifrət ifadəsi ilə qəzəbimizi dilə gətiririk. Əslində, bəşəriyyətdə misli görünməmiş soyqırım siyasəti elə budur - Erməni xalqının mənlik şüurunu əlindən almaq, onu "haylaşdırmaq", erməniyə hay donu geyindirmək və erməni adlı bir etnosu yer üzündən silmək! Bax, "haylar" özlərini "erməni" adı ilə dünyaya tanıtmaqla əslində erməni adlanan bir türk dilli xalqın kökünü qazıyıb - qaşıyıb yer üzündən silmək və "erməni xəstəliyi" adı ilə hayların bəşəriyyətə xəyanət planını yerinə yetirmişlər. Budur "haylığın" (bizim "ermənilik" kimi işlətdiyimiz haylığın) əsl riyakar xisləti. Budur "haylığın" - hayların bəşəriyyətə vurduğu zərbə. Budur hay fitnəsi!.. Özlərinin hətta "hay" adlı mənfur adlarını "erməni" ifadəsinin, özlərini isə bir millət olaraq "erməni"lərin arxasında gizlədərək, bəşəriyyətə, o cümlədən türk dünyasına qarşı amansız soyqırım, nifaq, ədavət toxumu səpmişlər. Türk əsilli erməniləri haylaşdırıb ("erməniləşdirib") türkləri öz içlərindən məhv etmək kimi məkrli siyasət oyunu hayların adam cildində şeytan - iblis olduğunun əsl göstəricisidir!..

Fikrimizə ilk açar kimi elə ermənilərin (hayların) öz dillərinə üz tutaq: "Hayes, torkes?" - yəni onların bir - birlərinə müraciət forması budur: haysan ("ermənisən"), yoxsa türksən? Deməli, onlar özləri də özlərinin kimliyini "erməni" adı ilə yox, "hay" adı ilə soruşub - öyrənirlər. Deməli, haylar "erməni" olsaydılar, özlərini elə "erməni" kimi adlandırardılar, daha "hay" kimi tanıyıb - çağırmazdılar... Bunu onların öz dillərinin arxasında görünən dilin məntiqi təsdiq edir. Necə ki, biz azərbaycanlıların özümüzdən spesifik bir sorğumuz var: "haralısan?", eləcə də "erməni" dediyimiz hayların özlərinin kimliyinə açar salan spesifik ifadə də "haysan, türksən?" ənənəvi sorğusudur. Bu, öz yerində. Heç olmasa deyirəm bədbəxt ermənilər gec də olsa, ayılıb - başa düşələr özlərinin hay fitnəsinə qurban getmiş olduqlarını, özlərinin dırnaqarası "erməni"(yəni hay) olmadıqlarını...

İkinci bir dil məntiqinə üz tutaq. Erməni, eləcə də "Yerevan" şəhər adının etimologiyası. Düzdür, bu saat yerevan sözünü ənənəvi olaraq "İrəvan" adı ilə təqdim edib, fars sözü olan "rəvan" sözündən olduğunu önə veririk. Lakin "Yerevan" sözü "yer"-"er", ev və an(on) sözlərinin birləşməsindən olmaqla on ərin evi(on igidin vətəni) deməkdir. Elə "erməni" adının etimologiyası da er(ər) və məni(mən) sözündən olub, ermənər(igid) mən, yaxud da men(mən) sözünün 4 sayını - rəqəmini bildirdiyini qəbul etsək, 4 ər(4kişi, igid) demək olduğu aydınca görünər. Başqa sözlə, erməni sözünün də, Erevan sözünün də mənşəyi özümüzün doğma sözlərimizdir. Erməni ifadəsini bakılıların "ərməni" şəklində tələffüz eləmələri də sözün birbaşa ər və mən tərkiblərindən ibarət olmasını göstərən dil faktıdır. Bu da ermənilərin türkmən, türkman və s. adlarımız-xalq adını bildirən sözlərimiz kimi eyni prinsipə əsaslanmaqla erməni - ərməni adlı türk tayfası olmasına bir işarədir.

Heç kəsə sirr deyil ki, biz Fransa erməniləri, ya Livan erməniləri sözünü Qarabağ erməniləri ifadəsindən qabarıq şəkildə fərqli çalarda ifadə edirik. Niyə? Səbəbi təhtəlşüurda gizlənib. Ona görə ki, burada zahiri görünüş, yəni antropogen amillər öz sözünü dedirtdirir. Çünki Fransa, ya Livan "erməniləri" kimi tanıdıqlarımız - gördüklərimiz ermənilər yox, yastıbaş haylardır - yəni bizim, türklərin əsl düşmənləri olan, "erməni" adları altında maskalanmış gizlənmiş haylar. O hayların başlarının arxasının yastı olmaları ilə - antropogenetik baxımdan ermənilərdən tamamilə fərqlənirlər. O haylar öz təbiətləri etibarilə qəddarlıqları, qaniçici olmaqları ilə də ermənilərdən fərqlənirlər. O haylar erməniləri bir etnos olaraq özlərinə çəkib özəlləşdirməklə həm də özlərini dünyaya "erməni" adı altında sırımaqla bəşəri cinayətlərə meydan açırlar. O haylar ermənilərin özlərini məzlum vəziyyətə salaraq, erməniləri manqurtlaşdıraraq öz əllərində bir yaddaşsız canlı alətə çevirib, onların vasitəsilə istədikləri amansız oyunları çıxardırlar. O haylar ki, özlərinin soyqırım əməllərini hayların adlarına yazdırmamaq üçün qəsdən özlərini "erməni" kimi təqdim edirlər, amma öz içlərində özlərini "hay"("hayes, torkes" timsalında gördük) adlandırırlar.

Bəli, Qafqaz Albaniyası - Azərbaycan ərazisi türkdilli etnosların vətəni olub. Bu gün də onlardan udinlər yaşayır, özlərinin də familiya sonluqları elə ermənilərinki kimi "yan"la bitir. Amma nə xoş ki, tarixin qarışıq dönəmlərində udinlər də ermənilər kimi "haylaşma" prosesinə (əslində siyasətinə) məruz qalmadılar... Ermənilərin "haylaşma" prosesinə oxşar bir hal da Gürcüstan ərazisində qreklərin (yunanların) başına gəlib...

Ermənilərin türkəsilli olmaları onların pasportlarındakı ad və inisiallarında da özünü büruzə verir. Nalbəndyan, Dəmirçiyan, Köçəriyan və s. və i.a. Babalarının, cəddi - əbalarının adları təmiz türk adlarıdır, "yan" şəkilçisi isə bu gün də Azərbaycan ərazisində yaşayan udinlərin soyad sonluğu ilə eyniyyət təşkil edir.

Bir başqa fakt da göstərim. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının arxivində SMOMPK məcmuəsini vərəqləyərkən, milli xörəklərimizin adlarının, məsələn, konkret dolma yeməyinin erməni kulinariyasına məxsus olmasını göstərən yazıların özünə yer almasını gördüm. Bu, nə ilə bağlıdır? Bu suala cavab vermək üçün ermənilərin buna bənzər digər folklor-etnoqrafik yönlü "oğurluq" faktlarına da diqqət çəkək. Yenə də heç kəsə sirr deyil Qarabağ ermənilərinin azərbaycanlıların adət-ənənələrini mənimsəmələri məsələsi. Hətta Qarabağ ermənilərinin təmiz Azərbaycanca aksentsiz danışmaları faktı, hətta erməni (hay) dilində mövcud olmayan "f" səsini asanlıqla tələffüz edə bilmələri faktı. Bütün bunların sirri, mənbəyi nədədir? İfadəmə görə bağışlayın, amma guya ermənilərin qız-gəlinlərinin türk (azərbaycanlı) kişiləri ilə intim münasibətlərindən dünyaya gətirdikləri uşaqlarla əlaqələndirirlər bu qanunauyğunluğu. Yox, məsələ daha qədimdir. Azərbaycan xalqının özü qədər incəliyinə qədər Azərbaycan məişətini, mədəniyyətini, adət-ənənələrini əxz eləyib mənimsəyən ermənilər özləri (əlbəttə, yenə deyirəm, söhbət haylardan yox, ermənilərdən gedir) mənşəcə türk olublar. Tarixin faciəli olayları içərisində haylar erməniləri "erməniləşdirmişlər" (yəni haylaşdırmaq mənasında), nəticədə öz əsl köklərinə dönük-xilaf çıxan ermənilər hayların məkrlərinə aldanıb-uyub, dillərini, əqidələrini, erməniliklərini unudub, haylaşma prosesinə məruz qalmışlar. Nəticədə hayların soyqırım hiyləsi bir etnosu öz kökündən ayırmaqla həm də onları hay fitnəsinin alətinə çevirmişdir. Dahi Mustafa Kamal paşa Atatürkün müdrik kəlamında deyildiyi kimi, milli mənliyi olmayan xalq əsarətə, məhvə məhkumdur. Bəli, ermənilərin milli mənlikləri unutdurulmuş, hayların vəhşi pəncəsində məhvə məhkum olunmuş, hay əsarəti altında zahiri adlarını gəzdirərək - o zahiri "erməni" adını da mənfur "hay" ifadəsi yerinə bəşəriyyətə mənfurluq timsalı kimi tanıtmışlar. Nəticədə şeytan xislətli haylar öz adlarını da bədnamlıq damğasından xilas etməyə müvəffəq olmuşlar... Bizdə bir yaxşı deyim var: tikana yaba eləmək ifadəsi. Tikanın tikanları adama batmaması üçün əlinə yaba (şana) alıb tikanı götürüb istədiyin tərəfə aparıb qoyursan. Buna oxşar "ilanı Seyid Əhmədin əli ilə tutmaq" ifadəsi də var. Yəni bir tikanlı - qorxulu işi aşırmaq üçün kimisə yaba kimi qabağa - tikanın üstünə verirsən; haylar da dünyada öz iblisanə əməllərini törətmək üçün manqurta döndərdikləri erməniləri öz əllərində oyuncağa çevirdilər, bütün dünyada indi hay xəstəliyi - hay fitnəsi kimi yox, erməni xəstəliyi, erməni bicliyi kimi tanınan şeytan əməlinin arxasında əslində yastıbaş hayların hiyləgər və amansız cinayətləri gizlənib.

Haylar bəşəriyyətin ədalət məhkəməsi qarşısında cavab verməlidirlər: 1) ermənilərin milli mənlik şüurunu əllərindən alıb, manqurta çevirməklə bir etnosun kimliyini yer üzündən silib - qazımaqla soyqırım faciəsi törətmişlər. 2) Bütün dünyada, eləcə də Azərbaycanda və Türkiyədə dondan - dona girməklə məkrli şeytani siyasət aparan hayların əsl maskası bəşəriyyətə açılıb göstərilməli, onların Qafqaza giriş kodlarının "erməni qılafı" faş olunmalı və Qarabağ müharibəsinin fitnəkarları kimi məsuliyyətə cəlb olunmalıdırlar.

Türklərin ən böyük düşməni olan haylar öz düşmənliklərini birinci növbədə ermənilərə aparmışlar. Ermənilər hayların soyqırım qurbanları olmuşlar. Bütün bəşəriyyət hay fitnəsindən ehtiyatlanmalı, bədbəxt, məzlum ermənilərin manqurtlaşdırılmış taleyini yaşamamaq üçün, ermənilərin yazıq gününə düşməmələri üçün hay virusu ilə mübarizəyə başlamalıdır!

**2010**

**İstedadlı yazar Elxan Tufanın (Baxşəliyev Elxan Zülfiqar oğlu) "Özümə ömür qalmadı" ("Təknur", 2019) adlı şeirlər kitabında diqqətimi bir şeir də yaman çox çəkdi: "Divardan asdığım şəkil"**

lir. Yoxsa ki, əks təqdirdə hamı üçün adi olan, cansız portret təsiri bağışlayan "divardan asdığım şəkil" canlana bilərdimi heç?..

"Bu otaqda tək qalmısan" deyib yalqızlığına-tənhalığına baxıb

# Divardan asılan şəkillə söhbət

**şeiri. Təsadüfi deyil ki, bu, kitabın redaktoru olan şair Mirzə Mirimlinin də diqqətindən yan keçməyib və ön sözündə həmin şeirə münasibətini belə ifadə eləyib: " O, şəxsi həyatında taleyin çox ağır sınaqları ilə qarşılaşdığı üçün şeirlərində bu təsirlər aydın hiss olunur:**

**Belədir həm yayım, qışım,**
**Bəlli yaşdır indi yaşım,**
**Dayan qapını bağlayıb**
**Dərdimi sənə danışım,**
**Divardan asdığım şəkil".**

Mirzə müəllim həm də Elxanı şəxsən çox yaxından tanıdığı üçün - "onun şəxsi həyatında taleyin çox ağır sınaqlarıyla qarşılaşmasının" yazdıqlarının məzmununa - mayasına çökdüyünü qeyd edir. Belə ki, lap başlanğıcda göstərir ki, "Elxan Zülfiqar oğlunu uşaqlıqdan tanıyıram. Gözlərimin qabağında böyüyüb. Orta məktəbdə dərs demişəm, bu günədək müəllim-şagird münasibətlərini qoruyuruq". Doğrudan da, müəllifi yaxından tanımaq onun yazdıqlarını birbaşa oxuyub anlamaqda mühüm açar olur. Elxan daməhz divardan asdığı şəklə müraciətən deyir ki, "dayan, qapını bağlayım, dərdimi sənə danışım".. Burada artıq şeirin birbaşa adına gətirilmiş olan "Divardan asdığım şəkil" sadəcə başlıq, sadəcə şeirin sərlövhəsi - adı demək deyil, həm də Elxan Tufanın poetik tapıntısıdır - metaforik obraz kimi "Divardan asdığım şəkil" anlayışına poetik məzmun verə bilmək istedadıdır. Şəklə adi şəkil kimi yox, qapını arxadan bağlayıb, səssiz otaqda ikilikdə - şəkillə birlikdə qalıb, dərdini danışacağı, dərdini bölüşəcəyi canlı sima kimi - dərd ortağı (kimi) olan sirdaş kimi yanaşıb, ona bədii-poetik baxımdan obrazlı məna verir.

Gündəlik məişətimizin ayrılmaz parçası olan, yəni hamımızın evində divardan asılan əzizlərinin-doğmalarının portret şəkilləri olur, amma hamının evində olan və divardan asdığı şəkil artıq bir şair kimi Elxan Tufanın poeziyasında poetik obraz şəklində dirilircana gəlir və insanla (müəlliflə) həmsöhbət olub, "danışıb-dilləşir"... Baxmayaraq ki, şeirini "Sənə də söz demək olmur" ricəti ilə başlayır, amma sonradan şəklin (divardan asılan şəklin) "qılığına girib", onunla əməlli-başlı "dil-tapıb, danışa bilir". Əlbəttə, bütün bunlar müəllifin bədii təfəkkürünün sayəsində baş tuta bi-

acıdığı-ağladığı, yazığı gəldiyi, halına yandığı şəkillə ona görə baş-başa qalıb danışa bilir ki, Elxan üçün "bu otaqda yurd salan" o şəkil sadəcə hamının nəzərindəki "divardan asılan cansız şəkil" qiyafəsində olan adi şəkil deyil. Bu şəkil adi görüntü cəhətdən olsa da, mahiyyət etibarilə divardan yox, Elxanın "ürəyinin başından asıldığı" üçün onunla ortaq ünsiyyət qura bilir. Məhz bu incə nüansa işarədir ki, "ürəyimdən asılmısan, divardan asdığım şəkil" deyir... Bəs niyə "ürəyindən asıb?". Niyə "ürəyindən asıla bilib?" bu "divardan asılan şəkil"? Ona görə ki, bu şəkil onun doğması, ciyərparası, ruhunun bir parçasıdır, özgəsi deyil, yad deyil, doğmadır və doğması olduğu üçün də evinin divarından asılıb - onunla "bir otaqda yurd salıb" yaşayır.

Bu məqamda qayıdıram bir daha şair M.Mirimlinin müəllifi uşaqlığından tanımasının üstünə ki, buna görə də "Elxanın taleyin ağır sınaqları ilə üzləşməsi"nin təsiri şeirlərində bu sayaq əks-səda verir. Bəli, Elxanın divardan asdığı şəkillər məhz onun erkən itirdiyi qardaşıTufanın və digər əzizlərinin şəklidir ki, onu həmin şəkillərlə təkbətək qalıb danışmağa vadar edən səbəb də dərddir - bu itkilərdən doğan ağır kədərdir. Axı dərd adamı danışdırar da, hələ təkbaşına qalanda havalandırar da. Ona görə də sonda "ədalətin anlamadım çərxi dönmüş fələyin də" deyib, divardan asılan şəklə rəğmən "sən əbədi evindəsən, mən zamanın ələyində" misraları ilə bir daha bəyan edir ki, ey şəkil, "sən əbədi evində" - axirət dünyasında qərar tutmusan, "mən isə hələ də zamanın ələyində" ələnməkdəyəm, hələ bundan sonra da başıma zaman-dövran nə iş-nə oyun gətirər deyə bilmərəm. Bu səbəbdən də hələ bizim "söhbətimiz bitən deyil, sözüm çoxdur ürəyimdə" fikriqənaəti ilə "Divardan asdığım şəkil" ilə söhbətini "bitirir", əgər buna bitirir demək olarsa.

Bir sözlə, Elxan Tufan "Divardan asdığım şəkil" deyib, "danışdırdığı" şəkil bizim hər birimizin evimizin divarlarından asılmış itirdiyimiz əzizlərimizin şəklidir. Amma divardan asılmış kimi görünən o şəkillər əslində bizim ürəyimizin başından asılıb. Hər dəfə o şəkillərə baxdıqca bağrımızın başını göynətməsinin sirri isə ürəyimizdən asılıb sallanan bu itkilərimizin ağırlığından yaranan ağrı-acılarımızın inikasıdır...

**Əlifoğlu**

**Mübarək demisən şeirlərimə**

*(Şakir Albalıyevə həsr olunur)*

Eşitdim bəxtindən gileylənirsən,
Demisən bədnəzər, göz tutub səni.
Oxuyub şeirimi çox ağlamısan,
Orda bir misra söz tutub səni.

Açıb kitabımı vərəqləmisən,
Sevgi axtarmısan vərəqlərində.
O vaxt sevmədiyim bir şair ömrün
Gəzirsən kitabın səhifələrində.

Allanıb yanağın nar çiçəyi tək,
Ötən sevgimizi xatırlamısan.
İndi anlamısan məhəbbətimi,
Deyirlər özünü çox qınamısan.

Qoyub kitabımı dizlərin üstə
Əlini əlinə daraqlamısan.
"Özümə ömür qalmadı"-
Ah çəkib astaca pıçıldamısan:
Özümə ömür qalmadı.

Mübarək demisən şeirlərimə,
Büzüb dodağını gülümsəyərək.
Orda bir şeir var mənim adıma,
Bivəfa adını qoyaydı gərək.

Mən dözə bilməzdim göz yaşlarına,
Bilsəm o səhifəni cırıb atardım.
Dayana bilmirəm baxışlarına,
Nakam sevgimizi qucaqlayardım.

**Elxan TUFAN**

## 65 il əvvəl

# Ruhlarında vətən daşıyanlar



*Cəbrayıllı günlər: Fərzəli Həsənov Əfəndilər kəndində*

**Hər kəs öz həyatının rəssamıdır deyirlər. Bu mənada hər adamın ömür yolu özünəməxsus rəngarəng rəsm tablosuna bənzəyir. Bu rəsm tablosundakı hər naxış ömrün müəyyən bir anının əksidir. Dilsiz-ağızsız şəkil yaddaşda yaşayan donmuş zamanla eynidir. Nə cansız şəkli dindirmək, yerindən tərpətmək mümkündür, nə də ki, ömrümüzün müəyyən bir mərhələsində ötüb qalmış keçmiş zamanı xatirələrimizdən qoparıb yenidən ikinci dəfə həyatda yaşatmaq mümkündür. Gücümüz ancaq bu zaman nostalgiyaya qapılıb xəyalən həmin anları, günləri təkrarən eynimizin aynasında dolandırıb düşüncələrə qapılmağımıza çatar. Nə itirilmiş zamanı, nə ötüb-keçən gəncliyi, nə də dünyadan köçən dostlarımızı, doğmalarımızı bir daha zamanın çarxını geriyə fırladıb təzədən özümüzə qaytara bilmərik...**

Düz 65 il bundan əvvəl Cəbrayıl rayonunun Çərəkən kənd orta məktəbinin birinci sinifinə gedən balaca məktəbliləri də beləcə... 15 nəfərin bir sinifdə birlikdə parta arxasında oturub 45 dəqiqə dərs dinləmələri, arada 5 dəqiqəlik tənəffüsə çıxmaları - bunlar hamısı bir igidin ömrü qədər vaxtı arxada qoyub tarixin yaddaşına dönüblər, şirin və əl yetməz, ünçatmaz xatirələrə çevriliblər. Hələ ikinci bir bəla, mənəvi əzab- işgəncə də burasındadır ki, həmin tarixi, zamanı, o dövrün gənclik və uşaqlıq illərini zamanın hökmü ilə geriyə qaytarmaq mümkün deyildirsə, çərxi-fələyin tərsinə gedişi ilə, fələyin üzüdönüklüyü ilə, gecrəftar zəmanənin hökmü ilə isə həmin o müqəddəs məkanı da bu gün canlı şəkildə gedib ziyarət edə bilmirik. Nə doğma Cəbrayılımızı, nə də doğma Çərəkəni ayaqlarımızla gedib, gözlərimizlə görə bilmirik. Zaman bizdən uzaqlaşdığı kimi, məkan da bizdən aralı düşüb (daha doğrusu, biz də məkandan - doğma yurddan aralı düşüb, qərib-didərgin ömrü yaşamağa məhkum olmuşuq).

Ürəyi vətən həsrətilə çırpınan, könlü doğma yurd sarıdan nanə yarpağı kimi əsən el ağsaqqalı Kəmaləddin Həsən oğlu Musayevin təşəbbüsü və təşkilatçılığı sayəsində oktyabrın 10-da 65 il bundan əvvəl - 1954-cü ildə Çərəkən məktəbinin 1-ci sinfinə qədəm basan sinif yoldaşlarından sağ qalanları "Ləvəngi" restoranında - 20 Yanvar metrostansiyası yaxınlığında bir yerə toplaşdılar. Zamanın təkərini geriyə fırlatmaq istədilər, doğma yurdun nişanəsini tapmaq istədilər bir-birlərinin isti nəfəsindən, yurd nisgilli gözləmişdilər o görüşə. İstədilər ki, bu sinndə- bu yaşda da Əmrah müəllim onlara bir dərs deyə. Amma bu dəfəki dərs bir ustad dərsi, bir ağsaqqal dərsi kimi kövrəldici - ürək göynədən, qəlb titrədən, göz yaşardan oldu. Uşaqlıq və gənclik illərinin həzin xatirələri dil açdı o görüşdə. Həsənov Fərzəli Həsən oğlu, Əliyev İbrahim Davud oğlu, Məmmədov Səxavət Yusif oğlu, Hacıyeva Aysaba Zakir qızı, Hacıyeva Rima Müzəffər qızı, Yusifova Elza Əmrah qızı və bir də məclisin təşəbbüskarı və təşkilatçısı olan Musayev Kəmaləddin Həsən oğlu bu dərsdə iştirak etdilər. Bir nəfər üzrlü səbəbdən "dərs"də iştirak etmədi. Qalanlarına isə ilahi tərəfindən ömürlük "qayıb" qoyulmuşdu.

Qeyd edim ki, 1962-ci ildə Çərəkən kənd 8 illik məktəbini bitirdikdən sonra rayonun mərkəzindəki Maksim Qorkinin adını daşıyan orta məktəbdə təhsillərini davam etdirib, 1965-ci ildə orta təhsilə yiyələnən bu uşaqlar sonradan respublikamızın müxtəlif ali təhsil məktəblərinə üz tutmuşdular. Hətta bu gün onlardan Fərzəli Həsənov, Aysəba Hacıyeva dissertasiya işi müdafiə edib alim adını da alıblar. Amma bütün bu ali təhsilə, elmi dərəcə almalarına baxmayaraq, hamı kimi onların da könüllərində keçmişin həsrəti haray salıb tüğyan edirdi. Bəli, bu həsrət təkcə aradakı zaman fər-



*65 ildən sonra bir yerə toplaşdılar*

rindən, bir-birlərinə qarşı sevgi və hərarətlə deyilən ürək sözlərindən... Başqa cürə mümkün də deyildi. Yağı düşmən doğma yurdu işğal edib, sinif yoldaşlarının demək olar ki, yarısı haqqın dərgahına qovuşub, özləri də yaşlarının üstünə illərin yaşını gətirib, 7 yaşlı uşaq dünyasından ayrılıb, ixtiyar yaşlı ağsaqqal və ağbirçək qiyafəsinə girmiş olsalar da... dadını-damağını çıxarmaq istədilər o qayğısız uşaqlıq illərinin və bəxtəvər vətənli günlərinin... Hələ onlara o vaxt cavan bir oğlan görkəmində dərs demiş olan Horovlu kəndindən olan və yeganə sağ qalan Əmrah müəllimi də dəvət etqində deyildi, həm də doğulub boya-başa yetdikləri vətən torpağından uzaq düşməkdə idi.

65 il əvvəl doğulduqları torpağın üstünə körpə qədəmlərini basaraq 1-ci sinfə gedən bu insanları həmin gün Bakının mərkəzində bir yerə yığan ilahi qaibanə qüvvənin bir adı da onların bir-birlərinə olan sevgisi, ürəklərində yaşayan vətən, el-oba sevgisi idi. Onlar bir-birlərinin simalarında 65 il əvvəl yaddaşlarında daşlaşıb qalmış uşaqlıq dünyalarını və vətən torpağının canlı təcəssümünü görürdülər. Bəli, onlar axı ümumən Azərbaycanın vətəndaşları olduğu kimi, lokal baxımdan yanaşdıqda həm də Cəbrayılın vətəndaşlarıdırlar. Vətən və daş sözlərinin birləşməsindən yaranan vətəndaş kəlməsi - Vətənin daşı. Amma adi cansız daş parçasından fərqli olaraq insan vətəndaş statusunda olanda vətənin canlı daş obrazını simvollaşdırır. Vətənin canlı daşı olan və vətəndaş statusunda çıxış edən insan (canlı vətəndaşı!) isə öz cismani və ruhani varlığı etibarilə elə birbaşa vətənin canlı daşı(yıcısı) olur. Bəli, həmin gün 65 il əvvəlin birinciləri canlı vətən daşı olub, öz sözləri -söhbətləri ilə canlarından-cisimlərində vətən gəzdirirdilər, ruhlarında isə vətən daşıyırdılar...

**ALBALI**



*Cəbrayıllı günlər: Papı kəndinə Bakıdan qonaqlar gəlib*

# Qanımızı cuşa gətirən"Qara qan"

## Coşğunluq və qələbə missiyası

***Yazıçı-publisist Fazil Famil oğlu Abbasovun - Fazil Güneyin 1075 səhifəlik "Qara qan" adlı tarixi roman-trilogiyasını oxumağa 3-cü hissəsinin son səhifələrindən - 1017-ci səhifəsindən başladım. Buna səbəb kitabın mündəricatını gözdən keçirərkən, XIX bölüm kimi təqdim olunmuş "Mən ermənəm, hay deyiləm" başlığına nəzərlərimin rast gəlməsi oldu. Təxminən 10 il bundan əvvəl mən mətbuatda "Ermənilər haylarınqurbanlarıdır" adlı bir səhifəlik yazı ilə çıxış etmişdim və o yazımda ermənilərlə hayların tamam başqa-başqa xalqlar-etnoslar olduğu iddiasını irəli sürmüşdüm. Düzünü etiraf edim ki, mən heç bir tarixi mənbəyə müraciət etmədən, yalnız özümün uzunmüddətli düşüncələrimin və bir elm adamı kimi gəldiyim qənaətlərimin nəticəsini o yazımda ortaya qoymuşdum.***

Hələ onu da boynuma alım ki, əlimdə heç bir dəlil-filan olmadan yalnız öz beynimin məhsuluolaraq qələmə aldığımdan, yürütdüyüm mülahizələrimə görə onda bir az da narahat idim. Amma oxucular mənə zəng edib mənim fikirlərimi təqdir edəndən sonra içimdə rahatlıq tapmışdım ki, deməli, bir az intuisiyamın gücü ilə, bir az da yekə çıxmasın, intellektual elmi zəkanın işığında yürütdüyüm bu mülahizələrim həqiqətə yaxın imiş. İndi isə Fazil Güneyin bu romanındakı "Mən ermənəm, hay deyiləm" sərlövhəsi ilə yazdığı tarixi həqiqətləri oxuduqca, mənim on il bundan öncə nəzəri fikirlər şəklində söylədiklərimin bir daha tarixi həqiqət olduğunun fərqinə varıram, hələ bir az da təəccübqarışıq sevinirəm ki, əlimdə heç bir məlumat, fakt olmadan ağlımın-zəkamın işığında həqiqəti necə də dürüst üzə çıxardıbmışam.

F.Güney əsərin həmin hissəsini aşağıdakı təqdimatla başlayır: "Artaşes ömrünün yarısından bu yananı streslər içində keçirmişdi: özünə təskinlik verirdi ki, hərənin bir xroniki xəstəliyi olur, onunku da stresdir. Özünə dəxli olmayan hadisələrdən də təsirlənib stresə düşürdü. Son günlər qəzetlərdə oxuduğu silsilə xəbərlər onun sinirlərini yenə gərginləşdirdi.

Bu yaxınlarda təsadüfən qatıldığı bir mətbuat konfransında Milli Azadlıq Hərəkatı İctimai Birliyinin sədri kimi özünü təqdim edən, ölkənin və xalqın durumu haqqında gerçəkləri deyən Vahan Martirosyanın sözləri onun ürəyinə su səpib sinirlərini sakitləşdirmişdi. "Ölkədə sağlam düşünən, xalqın gələcəyindən rahatsız olanlar hələ vardır" düşüncələri ilə sonda ona yaxınlaşıb minnətdarlığını bildirmişdi; görüşüb söhbətləşməyə vaxt da təyin etmişdilər. Lakin ertəsi gündən başlayaraq qəzetlərin Vahan haqqında yazdıqları onu məyus etmişdi. Demə, o, porno çəkən bir rəssamdır, narkotik qəbul edir, düşmənlər pul verib onu dövlət əleyhinə danışdırmışlar. Sonuncu xəbər Vahanın tanışından 4 min dollar oğurlayıb yoxa çıxması barəsindəydi. Artaşes hakimiyyətə quyruq bulayan qəzetlərin yazdıqlarına inanmırdı. Vahan tək Artaşesə yox, onu dinləyənlərin çoxuna məntiqli, savadlı, vicdanlı ziyalı təsiri bağışlamışdı.

"Bu ölkədə düz danışanın başına oyun açırlar. Yazığı tutsalar, işi bitdi. Bəlkə də, həbsə salıblar, indi qabaqdangəlmişlik edirlər. Yaxşı həmfikir tapmışdım. O da sənət adamıdır. Hamısı mənim bəxtimdəndir. Burda hara əl atıramsa, boşa çıxır. Məbəd sandığıma sığınıram, damı uçub başıma tökülür. Yıxılmamaq üçün hansı ağaca söykənirəm, çürük çıxıb aşır... Axı nədir mənim günahım, ey böyük Astvas!.. (Ey böyük Allah).

Artaşes düşündükcə, sinirləri kəllə-çarxa vururdu. "Daha mənim yaşamağımın ləzzəti qaçıbdır. Adam əlli yaşınadək bir şey eləyə bilməsə, sonrası çox çətindir. Çünki insan həyatı hər üzündə əlli pillə olan nərdivana bənzəyir. Əlliyə qədər adam yüksəlişə doğru gedir. Əlli yaşından sonra isə nərdivanın o biri üzü ilə üzü aşağı enir. Mən isə elə yerimdə saymışam".

Əslində o, 25 yaşından sonra üzüaşağı gedirdi. Bu dünyada nə görmüşdüsə, nə yaşamışdısa, 25 yaşınadək, 90-cı ildə Bakıdan çıxanadək yaşayıb zövq almışdı. Bakının səfalı yeri sayılan Ermənikənddə geniş həyətləri, ikiqatlı imarətləri vardı" (s.1017).

Bakıdan İrəvana (məcburi) köçkün kimi gəlmiş Artaşesin simasında yazıçı erməni faciəsinin əsl mahiyyətini açıb ortaya qoyur. Əbəs deyil ki, romanın girişində müəllif qeyd edir ki, "Məngördüyüm, eşitdiyim, araşdırdığım olayları, tanıdıqlarımın talelərini qələmə almışam" (səh.4). Bu məntiqdən götürdükdə erməni Artaşes obrazı ətrafında təsvir olunanlar da bir tarixi roman janrına uyğun olaraq obyektiv həyat həqiqətlərini əks etdirir.

"Bütün haylar kimi Bakı erməniləri də eyforiyada idilər. Onlar da hər ay məvaciblərindən ümumerməni fonduna pul keçirəndə, Ermənistan və Qarabağdan türkləri qırıb-çatıb qovanda bunu böyük Hayastana aparan yolun başlanğıcı sayırdılar. Amma Bakıdan könüllü-məcburi getməklə nələr itirəcəklərini ağıllarına gətirmirdilər. Bu, onları qaçqın-köçkünə çevriləndən sonra göynədəcəkdi"... (səh. 1019).

Göründüyü kimi, yazıçı tarixi hadisələri əsərinə gətirib. Erməni faciəsinə təkcə keçmiş tarixin yox, həm də günümüzün- zamanımızın reallıqları müstəvisində aydınlıq gətirir. Bununla həm də "Böyük Hayastan" adlı uydurma mifin insanların real yaşayışına necə zəhər qatdığını əyaniliyi ilə təsvirdə canlandırır: "Artaşes Avropa, Amerika, Rusiya müəlliflərinin də "erməni məsələsi"nə aid yazdıqlarını oxumuşdu, uzun illər tərəddüdlər içində araşdırmalar aparıb həqiqəti öyrənmişdi. Ona görə tərəddüdlər içində ki, bu məsələdə ürəyi bir tərəfə, başı o biri tərəfə çəkirdi. Ürəyi doğulduğu, havasını udub, çörəyini-suyunu yeyib-içdiyi məkana apardı. Başı isə təəssübkeşliklə milli kimliyinə, şəninə şirin nağıllar uydurulmuş "böyük Hayastan"ın, dənizdən-dənizə böyük ərazidə hökmranlıq edəcək bir toplumun nümayəndəsi olmağa sarı dartırdı.

İrəvana köçəndən sonra pasportunda vətəndaşlığını göstərən ölkəsinin, milliyyətini bildirən xalqının əsil kökünü, tarixini öyrənib bilməyə onda çox dərin maraq yaranmışdı. Bunun birinci səbəbi də dünyanın onları "erməni", dövlətlərini Ermənistan, daxildə isə özləri özlərini "hayk", - "Hayastan" adlandırmasıydı. Bələ çıxırdı ki, Ermənistan və erməni bir şey, "Hayastan, hayk" başqa şeydir və hayklar haralardansa tarixdən məlum Ərməniyyəyə gəlmişlər. Bu sadə olduğu qədər də çətin olan məsələni araşdırıb ortaya qoymaq




asan iş deyildi. Bunun ayırd edilməsində nə onun özünün mənsub olduğu dövlətin ideologiyası, nə də erməniləri kullanan, onlardan istifadə edən xarici qüvvələr maraqlı deyildi. Onlara üç İslam ölkəsiylə sərhədi olan xristian dövləti, xristian toplumu, əlbuyruqçusu gərəkdi, vəssalam! Bu toplumun, bu dövlətin necə adlandırılması veclərinə deyildi. Onlara çox gərəkli olan, üzərlərinə qoyulmuş missiyanı yerinə yetirən "Daşnaksütyun" partiyası, "gizli erməni ordusu" adlandırılan "Asala" terror qurumu və bunların arxasında duran erməni Qriqoryan kilsəsiydi.

Hələ Bakıdaykən əlinə keçmiş rus etnoqrafı Veliçkonun "Qafqaz"əsərində ermənilərin iç üzünün necə açılmasını oxumuşdu. Həmin dövrdə Moskvanın nəzarətindən çıxan Bakıda ermənilərin Qafqaza köçürülməsi ilə bağlı rus zabitlərinin, tarixçilərinin yazdıqlarını nəşr edirdilər. Şavrovun 1911-ci ildə yazdığına görə, Qafqazdakı bir milyon üç min ermənidən bir milyonu gəlmədir. Puşkinin , Lermontovun erməniləri qorxaq, satqın, alçaq adlandırmaları haqqında qəzetlərdə yazılanları oxuduqda alınırdı, bəzən hiddətlənirdi, mənsub olduğu xalqın bir üzvü kimi özünü təhqir olunmuş sayırdı. Amma hirsi tez soyuyurdu: ermənilərin yüz ildi elədiklərinə burda indi cavab verirdilər. Azərbaycanlılar özləri buna "daldan atılan daş topuğa dəyər" deyirdilər. XIX əsrin əvvəllərindən Qərbi Azərbaycanda aparılan etnik təmizləmə və türksüz Ermənistan dövlətinin yaradılması XX əsrin sonlarında tam başa çatmışdı: sonuncu 300 minə yaxın aborigen azəri türklərini tarixi vətənlərindən qovmuşdular və keçmişdilər Qarabağa, türk kəndləri bir-bir boşaldılırdı. İş-işdən keçəndən, ermənilər qarşıya qoyduqları məqsədə çatandan sonra azərbaycanlılar oyanıb arxadan daş atırdılar..." (səh. 1023-1024).

Burada müəllif Artaşesin düşündükləri fonunda hadisələri mərhələli şəkildə diqqət mərkəzinə gətirir. Bu prinsip isə hər şeydən əvvəl, ondan irəli gəlir ki, bu gün üzləşdiyimiz fəlakətin kökünə birər-birər aydınlıq gəlsin, yaşadığımız reallıqları tam olaraq əhatəli şəkildə dərindən anlaya bilək, qanqaraldıcı həyat həqiqətlərinin hardan rişələndiyini əməlli-başlı fərqinə vara bilək. Başqa sözlə, "Qara qan"ın niyə qara qan olduğunu - qanımızın necə qaraldığını, nədən qaraldığını tarixi hadisələrin işığında görüb aydınlaşdıra bilək. Çünki "Qara qan"ı oxuduqca, onun hər sətrini gözdən keçirdikcə qəlbimizdən qara qanlar axır. Qəlbimizdən axan o qanın niyə qara rəngdə olduğu sualına cavab tapaq. O qara rəng tarixdəki qara ləkələrin, bilinməz qara kölgələrin rəngidir ki, qanımıza-canımıza, yaşayışımıza yeridiblər, qanımızı qapqara rəngə boyayıblar - qanımızı qaraldıblar. Məhz üç hissədə qələmə aldığı "Qara qan" romanından yazıçının məqsədi də məhz bu kimi suallara cavab verməkdir, cavab aramaqdır.

F.Güney romanda erməni Artaşesin özünə verdiyi "Mən kiməm? Hay, yoxsa ermən?" sualının cavabı isə bir sıra həqiqətlərə aydınlıq gətirir:

"Neçə illər öncə bu yarımbaşlıq altında yazdıqları hələ bitməmişdi və verdiyi sualın cavabını tapmamışdı. Hələlik dünya tarixçilərinin, elm adamlarının ermənilər, hayklar haqqında yazdıqlarından sitatları toplamışdı.

... Şopen İ. "Erməni vilayətinin durumu haqqında tarixi yaddaş"... 1852. "Bilmirəm nəyin əsasında bizim ermənişünaslar haykanların, onların vətəni Hayastanın adlarını tamam başqa bir xalqa qoymuşlar. Aydındır ki, şimaldan gəlmiş Yafət nəslindən olan Armenlə (ermənlər -red.) cənubdan gəlmiş Sim nəslindən olan haykanların (hayanların) heç bir uyğunluğu yoxdur və ola da bilməz. Ərmənlər, parsuk, haykan və yəhudilərdən belə qarışıq bir xalq yaranmışdır.

... Dyakonov İ.M. "Erməni xalqının tarixi", 1983. "Hayklar heç vaxt özlərini erməni saymamışlar."

... Manuk Abeqyan "Erməni ədəbiyyatının tarixi", 1975. "Erməni xalqı hardan törəmişdir? Necə, nə zaman və hansı yollarla bu ərazilərə gəlmişlər? Erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqəli olmuşlar? Onların dilinə və etnik tərkibinə kimlər və necə təsir göstərmişlər?.. Bizim əlimizdə bu suallara cavab verən etibarlı və dəqiq sübutlar yoxdur".

... Rus qafqazşünas-antropoloqu L.Pantyuxov V.L. Veliçko ermənilərin kürdlərlə qarışığı olduğunu yazmışlar.

M.N, Cavaxaşvili "Gürcü xalqının tarixi" - 1916. "Qədim Qafqazda tapılmış kəllələrin əksəriyyəti dolixokrandır. Bugünkü ermənilər və gürcülərin kəllələri braxikrandır. İndiki erməni və gürcülərin xələfləri Qafqaza gələndə burada başqa xalqın sələfləri yaşayırdılar.

... Movses Xorenasi: "Ərmənlər içərilərinə gələn tayfaları assimilyasiya edirdilər. Bu tayfalardan çoxlu dövlət adamı və hökmdarlar çıxmışlar... Anakın oğlu Müqəddəs Qriqori sələn Parfiyadandır.

...Erməni tarixçisi Vermişev: "Gürcü-erməni əlaqələrinin tarixinə aid materiallar" (1904) əsərində XIX əsrin Qərb müəllifləri Lenorman və Roulinsonun bu fikrini təsdiqləyir: "Urartu dilinin müasir hayk dili ilə heç bir qohumluğu yoxdur. Hayası Firiqiyadan çıxmış, yavaş-yavaş Şərqə doğru torpaqları tutmuşdur. Urartu əhalisinin bir hissəsini bu ərazidən sıxışdırıb çıxarmış, digər hissəsini öz içərisində qarışdırmış, onların adlarını, dilini, əfsanələrini dəyişdirib öz adlarına çıxmışlar... Urartu əhalisi qədim türk dilinin Ural-Altay dialektində danışırdılar. Hayas dili isə Hind-Avropa dil ailəsinə aiddir. Hurri və Urartu dillərində sözlərin kökünün sonuna sözdüzəldici şəkilçilər artırmaqla yeni məna, yeni söz yaranır.

... Kapansyan Q.A. "Hayasa ermənilərin beşiyidir (1947) - "Urartu ərazisinin tam haylaşdırılması bizim eradan əvvəl III-II əsrlərdə başa çatmışdır. Beləliklə, haylar 40 tayfanı içərilərində əritmişlər, hətta qaraçılarla qarışmışlar ("Murç" jurnalı, 1897)". Erməni tayfa başçılarında belə bir ideya vardı: "erməni qızlarının ayaqları dəyən yerlər bizimki olur".

... Veliçko V.L. "Kavkaz", 1904: "Qarabağın (Alban, yaxud Aqvan)xristian əhalisi türk və dağlı tayfalarından əmələ gəlmişlər, yalnız 3-4 əsr öncə haylaşmışlar... Digər rus alimləri Novoseltsev, Paşuto, Gerenin: "xristian albanların bir hissəsi erməni kilsəsinin təzyiq və təsiri ilə hayk dilini qəbul edib hayklaşdılar".

P.S. İki əsr öncə Qarabağa gəlmələrlə və İrəvandakı hayklarla XIX əsrdə zorən Qriqoryan kilsəsinə dönmə albanların dilində, xasiyyətində, mətbəxində, ələlxüsus, insanları arasında xeyli fərq var. Sübut: Mən Artaşes.

Bəs haykların bu uğurlarının kökündə nə durudu?

Hayk qızları!..

Hələ Bakıda ara qarışan ərəfədə tələbələrdən biri ona sataşıb "Engelsin erməni qızları haqqında yazdıqlarını oxuyubsanmı?" deyə soruşmuşdu. Pərt olmuş Artaşes Engelsin, əsərini tapıb oxuduqdan sonra cavab verməyi qərara almışdı. Engelsin, tələbə yoldaşının dediyindən də çox yazdığını görüb susmuşdu. Öyrənmişdi ki, hayk məbədi Anaitdən açıqca pullu fahişəxana kimi istifadə edilirmiş, tanınmış ailələr belə öz qızlarını ərə gedənədək qazanc gətirmək üçün həmin məbədə verirlərmiş. Strabonun da yazdığına görə, fahişəxanalar Yunanıstana buradan yayılmışdır" (səh. 1031-1033).

Göründüyü kimi, yazıçı burada dünya alimlərinin, tarixçilərin sənədli-sübutlu faktlarını misallar gətirməklə erməni amili məsələsinə aydınlıq gətirmişdir. Mən yuxarıda göstərilənlərdən xəbərsiz olduğum halda "Ermənilər hayların qurbanlarıdır" demişdim. Burada isə F.Güney bir araşdırıcı kimi bu mövzuda deyilənlərə üz tutmuş, tarixi həqiqəti oxucularına çatdırmışdır. Biz romanda Artaşesin şəxsi faciəsi ilə rastlaşıb, ona qəlbən ağrıyıb-acıyırıq. Yazıçı ustalığı ondadır ki, o , bir fərdin ölümü-faciəsi ilə minlərlə, milyonlarla insanın ölümünü-faciəsini ümumiləşdirə bilir. Məhz romanda göstərilən Artaşesin (Ərdaşın) ölümü-faciəsi də minlərlə ermənilərin, bütövlükdə isə üç milyonluq erməni xalqının faciəsini açıb göstərir. Hayların güdazına gedən, hayların qurbanlarına çevrilən, hayların mənəvi və cismani olaraq soyqırımına məruz qalmış olan erməni xalqının faciəsi "Qara qan"da ürəklərdən qara qanlar axıdır. Ümumiyyətlə isə "Qara qan"ın hər bölümündə müxtəlif biçimlərdə, müxtəlif parametrlərdə həyatımızın müxtəlif yönlərindən yanaşılmaqla üreyimizi paramparça edib parçalayan qara qanların təsviri əsas yer tutur. Həyatımızın qanımızı qaraldan real səhnələri "Qara qan"ın təsvir obyektindən aydınlığı ilə görünür. Mən o səhnələrdən birini - "Mən kiməm? Hayk, yoxsa ermən?" sualı ətrafında cərəyan edən hadisəni azacıq da olsa fotoqrafın fotoaparatın obyektivinə gətirib çəkdiyi bir şəkil kimi bu yazımın obyektivinə gətirdim...

**Şakir ƏLİFOĞLU**

# Yarımçıq qalan arzular...

## Vida sözü



**Hər bir Qarabağ qazisi dünyasını dəyişəndə elə bilirəm ki, işğalda olan torpaqlarımızın azad edilməsi barədə verilən bir əhd-peyman pozulur. Bir qazinin itkisi bir bələdçinin, bir canlı şahidin, tariximizin müəyyən anlarının itkisidir. Ömrünü bütünlüklə hərbi sahəyə həsr etmiş Qarabağ qazisi, kapitan Hacı Nəsib oğlu Hacıyevin də vaxtsız və qəfləti vəfatı bu qəbildəndir..**

Hacı Hacıyev 1963-cü il mart ayının 1-də Cəbrayıl şəhərində, uzun illər Cəbrayıl Pasport masa rəisi işləmiş kapitan Nəsib Hacıyevin ailəsində anadan olub. Həmin ailədə onunla birgə daha beş oğul, iki qız övladı da böyüyürdü. O, bədnam qonşularımız torpaq iddiası irəli sürərək savaşa başladığı zamandan silaha sarıldı və könüllü olaraq Qarabağ savaşına qatıldı. Döyüş yolu Murov da daxil olmaqla demək olar ki, bütün cəbhə bölgələrindən keçdi. 2004-cü ildə ehtiyata buraxıldı. Bundan sonra da ordu quruculuğuna öz töhfələrini verdi, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə dərs deyərək, öz zəngin hərbi təcrübəsini gənc kursantlara öyrətdi. Amansız ölüm onu çox erkən-əlli altı yaşında, arzularının çiçəkləndiyi bir zamanda- 20 noyabr 2019-cu il tarixdə haqladı. Səmayə ananın, bacı-qardaşlarının, üç oğul balasının boynu bükülü, gözləri yaşlı qaldı. Axı onun hələ neçə-neçə arzuları vardı. Yurd yerlərimizə qayıdacağına qəlbən inanırdı. Nahaq deməyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Fələk saydığı isə çox ağır oldu.

Amma ölüm sevinməsin. Hacı Hacıyevin arzularını, ən başlıcası isə yurd yerlərimizə qayıdış arzusunu mərd oğullarımız reallaşdıracaq. Bu oğullar cərgəsində onun da üç oğul balası olacaq. O gün uzaqda deyil. O gün mütləq gələcək. Bax onda cəmi şəhidlərimizin, yurd həsrətilə dünyasını dəyişmiş qazilərimizin, o cümlədən kapitan Hacı Hacıyevin ruhu şad olacaq. Allah sənə rəhmət eləsin, eloğlu! Ruhun şad, məkanın cənnət olsun!

***Əziz xatirəsinə böyük ehtiramla:***

**Hidayət Səfərli**

# Xatirəsi yaşayacaqdır



**Əhmədov Şamil Əmir oğlu 1940-cı ildə Cəbrayıl rayonunun Kavdar kəndində kolxozçu ailəsində anadan olmuşdur .1948-ci ildə Kavdar kənd 7 illik məktəbin 1-ci sinfinə qəbul olmuş, 1954-cü ildə həmin məktəbin 7-ci sinfini bititrmişdir. Daha sonra Soltanlı kənd orta məktəbinin 8-ci sinfinə daxil olub, 1958-ci ildə həmin məktəbin 10-cu sinfini başa vurmuşdur .**

1958-ci ildə Bakı Mədəni Maarif Texnikumuna daxil olub, 1960-cı ildə həmin texnikumu bitirən Şamil Əhmədov 1960-cı ilin sentyabr ayından Mahmudlu kənd Texnika Təmir Stansiyası klubunun müdiri işləməyə başlamışdır. O, 1961-ci ilin iyun ayından rayon mədəniyyət şöbəsində inspektor işləməklə eyni zamanda 1965-ci ildə qiyabi olaraq APİ-nin biologiya fakültəsinə daxil olub, 1971-ci ildə həmin institutu bitirmişdir .

Ş.Ə. Əhmədov 1964-ci ilin iyunundan rayon Komsomol Komitəsinə təlimatçı, həmin ilin noyabr ayından Komsomol Komitəsində təlimat şöbəsinin müdiri, 1965-ci ilin oktyabrından isə rayon Komsomol Komitəsinin 2-ci katibi vəzifələrinə irəli çəkilmişdir.

1971-ci ildə Cəbrayıl rayon Partiya Komitəsində təlimatçı, 1971-ci ilin martından isə rayon Partiya Komitəsi siyasi maarif evinin müdiri vəzifəsində işləmişdir .

1973-cü ilin 1mayından rayon Partiya Komitəsinin bürosunun qərarı ilə Şamil Əhmədov Hacılı kənd Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinə sədr göndərilmişdir .

1993-cü ilin fevralından 2007 -ci ilin noyabrınadək Cəbrayıl rayon Hacılı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi işləmişdir.

Hacılı kənd ərazi vahidi üzrə nümayəndə vəzifəsindəki uzun illər səmərəli iş fəaliyyətinə görə dəfələrlə Fəxri Fərmanlarla təltif edilmişdir.

Bundan başqa o, 23 iyun Dövlət Qulluqçularının peşə bayramı münasibətilə də - 22 iyun 2006-cı ildə Fəxri Fərmanla təltif olunmuşdur.

Şamil Əhmədov 5 dekabr 2019 -cu ildə məskunlaşdığı Biləsuvar rayonu ərazisindəki məcburi köçkün qəsəbəsində vəfat etmişdir.

Bu yığcam və rəsmi təqdimatdan da görürük ki, Şamil müəllim yaşadığı 79 ili hədər yerə sərf etməmiş, məsul və rəhbər vəzifələrdə çalışmaqla rayonumuzun ictimai həyatında mühüm fəaliyyətləri olmuşdur. Ömrünü-gününü elinin-obasının günü-güzəranı, firavan yaşayışı yolunda rəsmi qulluğa həsr eləmiş Şamil Əhmədovun əziz xatirəsi onu tanıyanların, doğmalarının qəlbində daimi yaşayacaqdır. Övladlarına və yaxınlarına başsağlığı diləyir, məzarı behiştlik olsun deyirik.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı və ”Xudafərin” qəzeti**

# DƏRSİN DİNLƏNİLMƏSİ VƏ TƏHLİLİ

## *Metodik təcrübə*

**Son illərdə Azərbaycan təhsil sistemində əsaslı dəyişikliklərin aparılması, təlim-tərbiyə prosesinin intensivləşdirilməsi, dünya təhsilinin qabaqcıl sahələrinə inteqrasiya məktəblərimizin simasının köklü şəkildə dəyişilməsinə gətirib çıxarır. Nəticədə təhsilin keyfiyyəti baxımından yeni səviyyəyə çatması üçün zəmin hazırlayır.**

Təlim-tərbiyə prosesində dərsin səmərəli aparılması, təlim prosesinin intensivləşməsi və optimallaşdırılmasına təsir edən əsas amillərdən biri öyrətmə prosesinin düzgün təşkilidir.

Mən məktəbdə pedaqoji işə nəzarət edərkən dərsin dinlənilməsi zamanı yuxarıda göstərilənlərə necə əməl edilməsini əsas götürərək, müəllim əməyini buna uyğun qiymətləndirirəm. Hər bir dərs müəllimin günlərlə, aylarla çəkdiyi zəhmətin, ürək döyüntülərinin məhsuludur. Bu baxımdan müəllimin iş üslubunun, pedaqoji ustalığının öyrənilməsi, müsbət və mənfi keyfiyyətlərinin təhlil edilməsi direktor müavinlərinin başlıca vəzifələrindən biridir.

Mən Cəbrayıl rayon təhsil sistemində çalışan bir müəllim kimi pedaqoji stajımın 38 ilini direktor müavini işləmişəm. Bu yazımda dərsin dinlənilməsi və təhlili haqqında fikir və mülahizələrimi yeni işləməyə başlayan məktəb rəhbərləri ilə bölməyi lazım bilirəm.

Dərsi dinləyib təhlil etmək olduqca məsuliyyətli və çətin işdir. Məktəbdə təhsillə bağlı bütün problemlərin həllində, tədrisin yaxşılaşdıırılmasında, fəal təlim metodlarının tətbiqində, müəllimin peşəkarlıq səviyyəsinin yüksəldilməsində, metodik tövsiyələrin verilməsində direktor müavinlərinin əməyi böyükdür.

Hər kəsə aydındır ki, məktəbdə müəllim də, idarə etmə qurumları da, maddi-texniki baza da ilk növbədə təlim-tərbiyə prosesinin təşkilati struktur bazası kimi çıxış edən 45 dəqiqəlik dərsə xidmət edir. Buna görə də mən bütün pedaqoji-psixoloji prinsipləri nəzərə almaqla, həyata keçirdiyim dərs dinləmələrdə təlim-tərbiyə işinin optimallaşdırılmasına bir vasitə kimi baxıram. Dərsdinləmədə planlı şəkildə, necə gəldi yox, müəyyən sistemi gözləməklə qeyd etdiyim prinsiplərdən istifadə edirəm. Çoxillik müşahidələrimə və təcrübəmə arxalanaraq, hər bir müəllimin pedaqoji fəaliyyətini və əməyini obyektiv qiymətləndirməyə çalışıram.

Dərslərin dinlənilməsi zamanı müəllimin fəaliyyətinin üç istiqamətini əsas götürürəm: a) müəllimin təşkilati fəaliyyətini; b) müəllimin təlim fəaliyyətini; c) müəllimin tərbiyəvi fəaliyyətini. Qarşıya qoyulmuş məqsəddən asılı olaraq bu sxem dərsin konkret və əhatəli təhlilinə imkan verir.

Dinləyəcəyim hər hansı bir dərsdə iştirak edərkən, əvvəlcədən planlaşdırdığım şəkildə konkret olaraq qarşıya məqsəd qoyuram:

I . İnteraktiv təlim üsullarından biri olan texniki və əyani vasitələrdən necə istifadə olunur;

II . Dərsdə şagirdlərin fərdi xüsusiyyətlərinin üzə çıxarılmasının, şagirdlərin müstəqilliyinin,

Təşəbbüskarlığının və fəaliyyətinin yoxlanılması;

III. Şagirdlərin idrak qabiliyyətlərinin üzə çıxarılması, onlarda nitq inkişafının yoxlanılması;

IV. Dərsdə əks əlaqədən istifadə, tədris prosesinin intensivləşdirilməsi və optimallaşdırılması;

V . Müəllimin metodik ustalığını, dərsdə problem-situasiya yarada bilməsinin yoxlanılması;

VI. Şagirdlərin bilik səviyyəsinin nə dərəcədə olduğunu, ev tapşırığının icra vəziyyətini öyrənmək;

VII. Dərsin ən vacib elementlərindən olan sinfin təşkili və vaxtdan səmərəli istifadə etmə və s.

Tədris ilinin əvvəlindən dərslərin dinlənilməsinə aid jurnal hazırlayıram. Həmin jurnalda dinlədiyim dərsin mövzusunu, qarşıya qoyduğum məqsədi, dərsin müsbət, mənfi cəhətlərini və nəticəsini qeyd edirəm. Dərsin təhlili zamanı ilk əvvəl müəllimin özünü dinləyirəm. Sonra isə öz fikir və mülahizələrimi söyləyirəm. Çalışıram təhlil pedaqoji və psixoloji cəhətdən daha dolğun olsun. Dərsin mənfi cəhətlərini doğuran səbəbləri və onların aradan qaldırılması yollarını müəllimə izah edirəm. Eyni zamanda, dinlədiyim dərsin müsbət cəhətlərini də mütləq müəllimin nəzərinə çatdırıram. Dinlənilmiş dərsdə müəllimin bəzi nöqsanları müşahidə olunsa belə, həmin dərsin pis keçdiyi qənaətinə gəlmək olmaz. Ən azı müxtəlif məqsədlərlə müəllimin 2 - 3 dərsini dinləmək məqsədə müvafiqdir. Mən dinləyəcəyim dərsə əvvəlcədən hazırlaşıram. Şifahi sorğu üçün suallar hazırlayır və yazı işləri üçün qabaqcadan mövzu seçirəm. Bu cür planlaşdırma dərs dinləmənin işini xeyli asanlaşdırır.

Şagirdin biliyini yoxlayarkən suallar hazırlayıram. Bu suallar çətin, orta və asan səviyyəli olur. Sualları bütün sinfə verir, ancaq cavabı nəzərdə tutduğum şagirdlərdən soruşuram. Bununla da şagirdlərin proqram materialını nə dərəcədə mənimsədiklərini öyrənirəm. Yarımilin yekunlarına yaxın test yoxlamalarına, yazı işlərinin aparılmasına xüsusi diqqət ayırıram. Test yoxlamalarını nəticələrini müvafiq fənn metodbirləşməsi iclaslarında işgüzarlıqla müzakirə edirəm.

Bunu da xüsusi qeyd edim ki, təlim-tərbiyə işlərində inzibati metodlara arxalanmaq çox ziyanlıdır. Məkəb rəhbərliyinin demokratikləşdirilməsi kollektivlə rəhbərlik arasında qarşılıqlı münasibətlərdən çox asılıdır. Əgər kollektivdə söz və tənqid azadlığı hökm sürürsə, demək, müəllimlər arasında rəhbərliyin nüfuzu yüksəkdir.

Sonda bir daha qeyd edim ki, direktor və onun müavinləri rəhbərlik fəaliyyətlərini demokratik prinsiplər əsasında, müasir təlim metodlarına uyğun şəkildə həyata keçirsələr, təlimdə yüksək nailiyyətlər əldə etmək olar.

**Mirzə Mirimli,**
*8 saylı tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini*

## Cəbrayıl rayon prokurorunun 2020-ci ilin 1-ci rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 1 saylı qəsəbə | 14.01.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |
| 2. | Cəbrayıl rayonu, Cocuq Mərcanlı kəndi | 22.01.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |
| 3. | Şirvan şəhəri (Sənaye Texniku-munun inzibati binası). | 07.02.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |
| 4. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 2 saylı qəsəbə | 20.02.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |
| 5. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 06.03.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |
| 6. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 3 saylı qəsəbə | 16.03.2020-ci il Saat: 11:00 | Prokuror Ramiz Əliyev |

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

**Mikayılov İsmayıl Məhi oğlu, Nigar və Natəvan Yamin qızı Məmmədovalar, Seyidəliyev Rövşən Fərman oğlu və Hüseynov Nazim Məhəmməd oğlunun vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Açıq Səma” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3500**
**Tiraj: 1200**